# Konstitusiya və suverenlik - fəal vətəndaşlıq mövqeyi

Dövlət başçısının Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamı ulu öndərin bilavasitə rəhbərliyi ilə 1995-ci il 12 noyabr tarixində qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyasının 30 illiyi və 2020-ci ildən Müzəffər Ordumuzun rəşadəti ilə torpaqlarımızın azadlığının bərpasının 5 illiyinin təntənəsidir. Bu sərəncam Azərbaycan tarixində 2025-ci ili xüsusilə yaddaqalan səhifəyə çevrilməsində və dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Yaşadığımız tarixə, keçdiyimiz o çətin günlərə nəzər salmaq, unutmamaq, yaşatmaq və gələcək nəsillərə ötürmək, xalqımızın milli birliyinin təzahürü olaraq dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam keçmişimizə ehtiram kimi böyük əhəmiyyətə malikdir. Bu Sərəncam "keçmişini unutmadan gələcəyini düşünən xalq" ifadəsinin tarixi möhrünü vurdu, ölkəmizin tarixi keçmişi, bu günü və gələcəyi üçün böyük dəyər kimi qiymətləndirilir. Hər bir xalq müstəqil, hüquqi dövlətçilik və suverenliyi mövcud olan güclü dövlətin vətəndaşı olmaq və bu yolda mübarizə aparmaq əzmindədir. Bildiyimiz kimi, hər bir dövlətin Konstitusiyası, Suverenliyi ən vacib amillərdəndir. Dövlətin möhkəmliyi, əsaslı şəkildə hüquqi və siyasi cəhətdən formalaşması, vətəndaşına etibarlı bünövrə, irs kimi bəxş etmək və qanuni şəkildə tətbiqi davamlı inkişafa gedən yolun başlanğıcıdır. Bu baxımdan möhtərəm prezidentimiz İlham Əliyevin bu Sərəncamı yaşadığımız tarixə bir nəzər, "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

Azərbaycan artıq bir müstəqil dövlət olaraq suverenliyi üçün hüquqi-siyasi, sosial-iqtisadi fundament formalaşdırmış, beynəlxalq arenada hərtərəfli inkişaf addımlarını və bu addımlardan əldə etdiklərini nümayiş etdirmək üzrədir. Xüsusi vurğulamaq lazımdır ki, bu inkişafın ilk addımları ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə başlamışdı. Həmin dövrdə Heydər Əliyev hər bir sahədə mədəni, hərbi, maarifçilik və iqtisadi inkişafa gedən uğurlu yolun başlanğıcını qoydu. Bu başlanğıc hazırki günümüzdə potensialımızın nəticəsi olaraq səciyyələndirilir və müstəqillik illərində dövlətçilik ənənələrimiz üçün çox mühüm rol oynadı. Müdrik siyasətçi Heydər Əliyevin birinci hakimiyyəti illərində azərbaycanlı tələbələrin xaricdə təhsil alması, müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli soykökə qayıdış, o cümlədən xalqın əldə etdiyi maddi-mənəvi sərvətlərin mühafizəsi üçün muzey sahəsində də bir çox mühüm işlər həyata keçirildi.

Ulu öndər Heydər Əliyev hər iki hakimiyyəti illərində Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr bəxş etmiş, həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası ənənəvi şəkildə bərqərar oldu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Azərbaycan dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu, bir çox sahələri əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı illərdə Azərbaycanda köklü dəyişikliklər baş verdi. Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu.

Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yeni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir". Bəli müdrik el atası, bununla da dövlət üçün, xalq üçün ən böyük uğuru əldə etdi və bü günümüzə müstəqil Azərbaycanı qorumaqla düşünülmüş, siyasət sərgilədi, fədakarlıq göstərdi.

Bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2025-ci ili "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında Sərəncamı ilə həmin o tarixi anları bir daha dəyərləndirdi, Əsas Qanunun Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı prinsiplərinin sistemli şəkildə ehtiva etdiyini diqqətə çatdırdı.

Bu Sərəncam Azərbaycanda hakimiyyət orqanlarının təşkili, fəaliyyəti, cəmiyyət, vətəndaş hüquqlarının çərçivələrini müəyyən edən, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edən Suveren dövlətin Konstitusiyasının 30 illik ali məqsədini və əldə olunan nəticəsini bir daha diqqətə çatdırdı. Bütün bunlar insana, onun hüquqları və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin, suveren, müstəqil Azərbaycanın bariz göstəricisidir.

**Bəxtiyar VƏLİYEV,**
**rayon tarix-diyarşünaslıq muzeyinin direktoru.**

# Tibb və təhsildə birgə inteqrasiya layihəsi

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində-bu günündə və sabahında, Azərbaycanın inkişafının bütün sahələrində əvəzedilməz xidmətləri var. Bu müqəddəs irsi bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəmizin bütün sahələrində, xüsusilə sosial sahədə böyük irəliləyişlər vardır. Yeni təhsil müəssisələri tikilir, təhsilin səviyyəsi artırılır, təhsil sahələri ən müasir avadanlıq və texnologiyalarla təmin edilir. Tədrisin və təlimin keyfiyyətləri müasir dövrün tələblərinə uyğun olaraq yüksəldilir. Bu sahədə özəl sektorların da inkişafına xüsusi diqqət yetirilir. Hazırda regionlarda aparılan sosial quruculuq işləri, yeni təhsil sahələrinin inkişafı və səviyyəsi heç də paytaxdakından və digər şəhərlərdən fərqlənmir. Bu gün sağlam düşüncəli, yüksək intelektual səviyyəli, psixoloji düşüncəli, intelekt əmsalı yüksək olan ziyalıların yetişdiyinin şahidi oluruq.

Uğurlarımızın bol və davamlı olması həmçinin ölkəmizdə tibbin-səhiyyənin də yüksələn xətt üzrə inkişafı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin təbirincə desək "Təhsil millətin gələcəyidir...sağlam bədəndə sağlam ruh olar". Bəli, bu gün hər iki sahə sosial inkişafın əsasını təşkil edir. Tibb və təhsil cəmiyyətimizin gələcəyi üçün ən strateji sahələrdəndir. Çünki sağlam insan olmadan inkişafdan, savadsız nəsil olmadan isə tərəqqidən danışmaq mümkün deyil. Təhsil gələcəyimizi formalaşdırır, tibb isə onu qoruyur. Müasir dünyada hər iki sahədə sürətli inkişaf müşahidə olunur. Rəqəmsal texnologiyalar süni intelekt, telemedisina, distant təhsil sistemi artıq gündəlik həyatımıza daxil olub. Təsadüfi deyil ki, bu sahələrin inkişafına xüsusi diqqət yetirilir. Yeni, müasir səhiyyə obyektlərinin yaradılması, ən müasir tibbi texnologiyanın bu sahəyə tətbiqi, təcrübəli mütəxəssislərin cəlb edilməsi, onların əməyinin yüksək qiymətləndirilməsi dövlətin daim diqqət mərkəzində saxlanılır.

Təhsilin və səhiyyənin daha da inkişaf etdirilməsi üçün hazırda ölkə başçısı tərəfindən təsdiq edilmiş Dövlət Proqramı fəaliyyət göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, bütün sosial və iqtisadı sahələrdə aparılan işlərin mütərəqqiliyini gücləndirmək üçün Respublikada bir sıra ictimai birlik və təşkilatlar öz layihələri ilə çıxış edir.



Belə layihələrdən bir də 2023-cü ilin yanvarından fəaliyyət göstərən "Tibb və Təhsildə birgə inteqrasiya" layihəsidir. Layihə qısa bir zamanda çoxsaylı uğurlar əldə etmişdir. Layihənin rəhbəri İnkuliziv Təhsil və Psixologiya sahəsində yüksək təcrübəyə malik mütəxəssis, Qəbələ rayonunun Həmzəli kəndindən olan Jalə Mirsaabdır. Təqdim edilən layihə bütün bu uğurları göstərmək üçün çox unikal bir imkandır. Layihə respublikanın müxtəlif regionlarında, paytaxtda çoxsaylı tədbirlər keçirmiş, ictimaiyyətin, xüsusilə gənclərin, ziyalıların böyük rəğbətini qazanmışdır. İctimai sorğu və rəylərdən göründüyü kimi, ölkə ziyalıları bu layihəni bəyənir və dəstəkləyirlər. Çünki bu gün Azərbaycan vətəndaşının rifahının yüksəldilməsi onun vətənə bağlılığını artırır. Müstəqillik dövründə əldə etdiyimiz ən böyük uğurlardan biri də məhz budur.

Əldə edilən nəticələri dünya səviyyəli praktikaya inteqrasiya edərək gənc nəslin daha mükəməl kadr kimi yetişməsinə nail olmaq bu layihənin ən başlıca vəzifəsidir. Eynilə tibb və təhsil mütəxəssislərini bir araya gətirərək elmi məlumatlari birgə paylaşım etmək, tibb və təhsil prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi qarşıya qoyulan prioritetdir. Layihə tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması məqsədi ilə elmi təşkilatları, mərkəzləri və təhsil, tibb müəssisələri arasında əlaqələri gücləndirməsinə nail olmağa çalışır.

"Tibb və Təhsildə birgə İnteqrasiya" layihəsi bu ilin sentyabrında ilk dəfə olaraq Qəbələ şəhərində təşkil olunacaq.

Layihənin mahiyyəti: sağlamlıq, daha sonra təhsil ardıcıllığı, öyrənmə, eləcə də təhsil təşəbbüsləri vasitəsilə səhiyyə ilə təhsilin fonunda yarana biləcək problemlərin həllinə diqqət yetiriləcək.

Bu layihə səhiyyə və təhsildə bir-biri ilə əlaqəli sektorların vacibliyini vurğulayır. Layihə həmçinin tibb və təhsil arasında əməkdaşlığı inkişaf etdirməklə, emosional düşüncə və sosial rifahı əhatə edən inteqrasiya olunmuş yanaşmalar etmək məqsədi daşıyır.

Layihə gələcək illərdə səhiyyə və təhsilin inteqrasiyası üçün qlobal gündəliyi müəyyən etmək məqsədi ilə qabaqcıl tədqiqatların, ən yaxşı təcrübələrin və innovativ ideyaların mübadiləsi üçün keçirilməsini məhz layihə olaraq təkcə Azərbaycanda deyil bütün türk dövlətləri üçün öz dəstəyini gözləyir.

"Qəbələ səsi" qəzeti olaraq biz də layihənin işinə uğurlar arzulayırıq. Əminik ki, bu layihə qarşıya qoyulan məqsədlərə nail olacaq.

Gəlin həm müəllimlərimizə, həm də həkimlərimizə dəyər verək, onların zəhmətini qiymətləndirək və gələcək nəsillərə sağlam və savadlı bir vətən bəxş edək!

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**

# Uğura gedən yolda



Qədimov Qədim Coşqun oğlu 1999-cu il aprel ayının 20-si Vəndamda dünyaya göz açmışdır.

O, 1-ci Qarabağ müharibəsi qazisi, zabit Coşqun Ədilovun ən kiçik övladıdır.

Qədim 1-ci Qarabağ savaşında Vəndamın şəhidlərindən olmuş Eldəniz Mehdiyevin adını daşıyan Vəndam 1 saylı Pilot məktəbində təhsil almışdır.

Ali təhsilini Azərbaycan Texnologiya Universitetində Mühəndislik ixtisası üzrə almışdır. Qədim hərbi xidməti işğaldan azad olunmuş Qarabağ bölgəsində keçmiş və xidməti zamanı fərqlənməyə görə Fəxri fərmanla təltif olunaraq ordu sıralarından təxris olunmuşdur.

Uşaqlıqda texnologiyaya qarşı dərin maraq göstərmiş və zamanla fərqli sahələrdə (özəl şirkətlər, bank sektoru, xidmət sahəsi və s.) işləməklə yanaşı daim öz üzərində çalışaraq rəqəmsal biliklərini inkişaf etdirmiş, aşağıdakı sahələr üzrə ixtisaslaşmışdır:

E - ticarət sistemləri və rəqəmsal marketinq.
SEO və veb analitika.
Web saytların hazırlanması.
Süni intellekt və avtomatlaşdırılmış texnologiyalar.
Proqramlaşdırma dilləri üzrə praktik biliklər.
Android sistem modifikasiyasıyaları və fərdiləşdirilməsi.
Windovs əməliyyat sistemi dəstəyi.
Excel üzrə ekspertlik.
DevOps (CI/CD, sistemlərin idarəolunması, deployment və monitorinq prosesləri).
Kibertəhlükəsizlik (Cyber Security).
Qrafik Dizayn.
Video dizayn və məzmun istehsalı.

Bununla yanaşı Qədim yazıçılıq, psixologiya, kvant fizikası ezoterik tarix kimi sahələrə də dərin maraq gostərir. Təbiətə bağlı bir şəxs olaraq meditasiya və fərdi inkişaf sahəsində yaşam mentorluğu ilə də məşğuldur.

2025-ci ildə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə Azərbaycanda ilk dəfə keçirilən EcomX e-ticarət təlim və inkubasiya proqramında iştirak edərək "<http://xn--tsbeh-elc.al/>" layihəsini rəqəmsal həllərlə inkişaf etdirib Unicorn layihə seçilmiş və 10000 manatlıq qrantla mükafatlandırılmışdır.

Qədim bu sahədə qazandığı geniş bilik və təcrübə nəticəsində rəqəmsal ekspert pilləsinə çatmışdır.

Hal - hazırda özəl sektorda çalışır və texnoloji yeniliklərlə yanaşı şəxsi inkişaf sayəsində də fəaliyyətini davam etdirir.

Qədimə bütün işlərində uğurlar arzu edirik.

**Seymur MİRZALIYEV,**
**Vəndam qəsəbəsi**